# Ombudsman Qarabağın ermәni sakinlәrinә müraciәt edib

Azәrbaycanda milliyyәtindәn, dinindәn, dilindәn, irqindәn vә digәr mәnsubiyyәtindәn asılı olmayaraq hәr bir vәtәndaşın, o cümlәdәn Qarabağda yaşayan ermәniәsilli vәtәndaşların hüquq vә azadlıqlarının sәmәrәli müdafiәsi istiqamәtindә kompleks tәdbirlәr hәyata keçirilmәkdәdir.




AZӘRTAC xәbәr verir ki, bu barәdә Azәrbaycanın İnsan Hüquqları üzrә müvәkkili (ombudsman) Sәbinә Әliyevanın Qarabağda yaşayan ermәniәsilli vәtәndaşların hüquq vә azadlıqlarının tәmini vә müdafiәsi ilә bağlı açıqlamasında deyilir.

Ombudsman qeyd edib ki, demokratik, hüquqi, dünyәvi dövlәt olan Azәrbaycan Respublikası bu il sentyabrın 19-20-dә hәyata keçirilmiş lokal xarakterli antiterror tәdbirlәri nәticәsindә uzun illәr әrzindә vәtәndaşların hüquq vә azadlıqlarının tәmininә ciddi tәhdid yaradan halları aradan qaldırmaqla beynәlxalq hüquqla tanınan әrazisi üzәrindә öz suverenliyini tam tәmin edib.

Açıqlamada, hәmçinin bildirilib: "Azәrbaycanda milliyyәtindәn, dinindәn, dilindәn, irqindәn vә digәr mәnsubiyyәtindәn asılı olmayaraq hәr bir vәtәndaşın, o cümlәdәn Qarabağda yaşayan ermәniәsilli vәtәndaşların hüquq vә azadlıqlarının sәmәrәli müdafiәsi istiqamәtindә kompleks tәdbirlәr hәyata keçirilmәkdәdir. Azәrbaycan Respublikasının İnsan Hüquqları üzrә müvәkkili olaraq, Qarabağda yaşayan ermәniәsilli vәtәndaşlarımızın milli qanunvericilikdә vә beynәlxalq sәnәdlәrdә tәsbit edilmiş hüquq vә azadlıqlarının tәmini vә müdafiәsi daim diqqәt mәrkәzindәdir.

Bildirmәk istәrdik ki, hәr bir vәtәndaşımız kimi, Qarabağda yaşayan ermәniәsilli vәtәndaşlarımız da hüquq vә azadlıqlarının tәmini mәsәlәsi ilә bağlı hәr hansı problemlә üzlәşәrsә, 24/7 rejimindә fәaliyyәt göstәrәn "916" Çağrı Mәrkәzi, tәsisatın telefon nömrәsi, elәcә dә sosial şәbәkә hesabları vasitәsilә vә elektron qaydada ombudsmana müraciәt edә bilәrlәr".

---

Azәrbaycan.- 2023.- 30 sentyabr.- S.11.